

## ZİYADXAN BUDAQ

# *AY BU ELIN YETIRMƏSI!*

Ay bu elin yetirməsi, sən bir bağın bəhərisən,
Bəxtimizin övlad payı, ömrümüzün gövhərisən.
Meydan sənin, yol sənindir, sən bu günün səhərisən,
Gümanları gerçək elə, ümidlərin çırağı ol!

Borcunu bil, yükünü qan, məramını dərk elə sən,
Ömür yolu imtahanıdır, addımını bərk elə sən.
Nə Zamandan qorxub çəkin, nə Məkanı tərk elə sən,
Dünya adlı bir mizanın pozulmayan növrağı ol!

Kimliyini qananların bir mənsəbə çatmağı var,
Bircə damla ömrü belə ümmanlara qatmağı var.
Haqqa meyil salanların nur selinə batmağı var,
Dinə çevril, imana dön, İlahinin sorağı ol!

Bil ki, sənsən indi bizim arxamız da, gücümüz də,
Yenilməyən qalamız da, topdağıtmaz bürcümüz də.
Bir sarvan ol, yolu bəllə, dayanmasın köçümüz də,
Qarşı gələn xoş günlərin ömrümüzdə bir çağı ol!

Ucuz tutma, qədrini bil, hər anı bir günə döndər,
Əməlini səpmək üçün toxum elə, dənə döndər.
Eşq sinəndə dil açanda səsə çevir, ünə döndər,
Əldən vermə bu şərəfi, yurd yerinin ocağı ol!

Tanrı verən bir fürsətdir ömür bir də ələ gəlməz,
Yaranışda qayda budur, hər yaranan bunu bilməz.
Dünənindən bərk tutmasan, sabahın da üzə gülməz,
Bir kök üstdə gövdələnən Ziyadxanın budağı ol!

## DÜNƏNDƏN SABAHA

Məni dünənimə çəkmə, sən Allah,
Yolumu tutmuşam üzüsabaha.
Yaddaşı şumlayıb əkmə, sən Allah,
Dünənim boy verib cücərməz daha.

Ömrümdə dil açan bir tufan kimi
Onsuz da səngiyib, yatıb dünənim.
Gələn sabahlara bir güman kimi
Əzəl istəyinə çatıb dünənim.

Dünənlə sabahın arasındayam,
Sabaha bir çimir yuxu qalıbdır.
Ayların, illərin sırasındayam,
Arxada ömrümün çoxu qalıbdır.

Dünəndən yadigar nəyim var mənim?
Bir özüm bilərəm, bir qələm bilər.
Tələsik sovuşub, keçib dünənim,
İnanma təzədən qarşıma gələr.

Qoy gedim yolumu sabaha sarı,
Görüm uğurumun qazancı nədir?
Güdaza verməyim ümidi barı,
Görüm dərdlərinin əlacı nədir?

Onsuz da sabahım sükut içində,
Elə səssiz gəlir, səmirsiz gəlir.
Bəlkə yanılmışam mən bu seçimdə?
Bəlkə sabahım da çox yersiz gəlir?

Barı qoy yaxından tanıyım, bilim,
Görüm sabahımın ovqatı nədir?
Niyə ətəyindən üzülmür əlim?
Mənə payı nədir, sovqatı nədir?

## NƏ OLA

Nə ola, yuxuna girəydim sənin
Dəli həsrətimin həvəsi kimi.
Röyana şirinlik verəydim sənin
Bir görüş yerinin əvəzi kimi.

Sevincin qaynayıb bulaq olaydı,
Könlümü süfrə tək açaydım mən də.
Hər yana səs düşə, soraq olaydı,
Tutub əllərindən qacaydım mən də.

Gizlənib yuxunun dərinliyində
Bağrına basaydı Kərəm Əslini.
Beləcə bir röya şirinliyində
Yazaydım bəxtimin təzə fəslini.

Daşını ataydım Məcnunluğun da,
Səhralar əlimdən can qurtaraydı.
Bu görüş bir həsrət sonsuzluğunda
Təzə həvəs verə, eşq artıraydı.

Bizim sevgimizin uzağı kimi
Dərindən tanıyıb biləydin məni.
Yuxunun ən əziz qonağı kimi
Həsrət dəftərindən siləydin məni.

Ömrü uzanaydı vaxtın, zamanın,
Bir çimir yuxunun nə meydanı var?
Əlindən tutaydım bu son gümanın,
Görəydim dərdimə bir dərmanı var.

## YADINA DÜŞƏNDƏ

Ömrüm-günüm, dinlə üzün dönməmiş,
Mən sönmərəm ulduzumuz sönməmiş.
Şirin-şəkər xatirələr dinməmiş
Dinəcəyəm mən yadına düşəndə.

Hara çəkdi niyyət hara, yol hara,
Mehir saldım gen açılan qollara.
Ümidini çıraq eylə yollara
Dönəcəyəm mən yadına düşəndə.

Yaşayıram sevdamızın anında,
Bir tale var yolumuzun sonunda.
Axır bir gün mələklərin donunda
Enəcəyəm mən yadına düşəndə.

Xatirələr dönüb olsa bir qəhər,
Mən dönüncə səbrini bas birtəhər.
Bir yenilməz güc olsa da bu səfər,
Yenəcəyəm mən yadına düşəndə.

Təzə yanır sinəmdəki qor mənim,
Heç salmayıb dörd yanıma nur mənim.
Etibarım, sədaqətim var mənim,
Gələcəyəm mən yadına düşəndə.

## SOYUQ BAXIŞIYLA

Məni ürəyində gizlədə bilsən,
Soyuq baxışını əfv eləyərəm.
Bir də ümid verib gözlədə bilsən,
Ümidsiz ömrümü məhv eləyərəm.

Yollardan yığaram baxışımı da,
Gözümdən sellənən yağışımı da.
Sənsiz, boynubükük naxışımı da
Təzə görkəmimdə dəfn eləyərəm.

Ruhuma dad verər bəxtin oyunu,
Sevib əzizlərəm onun boyunu.
Dəhnədən kəsərəm dərdin suyunu,
Sən elə düşünmə səhv eləyərəm.

Sünbülüm dən tutar yaşıl zəmidə,
Boy verər, göyərər vaxtın çəmi də.
Ötən hər anı da, gələn dəmi də
Cərgəyə düzərəm, səf eləyərəm.

Ömrü tay bilərəm nurlu çırağa,
Qoymaram könüldən, gözdən uzağa.
Mən özüm düşərəm daha qabağa,
Bütün əngəlləri dəf eləyərəm.

## *SƏN DƏ GİLEYLİSƏN...*

Bir nişan qalmadı sabaha bizdən,
Çatılan ocaqdan, alışan közdən.
Bu ömür yolundan, cığırdan, izdən
Sən də gileylisən, mən də gileyli.

Bu dünya əzəldi, gerçəkdi elə,
Hamıya gözəldi, göyçəkdi elə.
Nə olsun bir dəstə çiçəkdi, elə
Sən də gileylisən, mən də gileyli.

Gör nə toy-düyündür, gör nə çal-çağır,
Göydən sevgi yağır, məhəbbət yağır.
Bizim bəxtimizin gərdişi - ağır,
Sən də gileylisən, mən də gileyli.

Əlçatmaz zirvədir vüsalın dəmi,
Düşmür əlimizə fürsətin çəmi.
Sahildən uzaqdır indi bir gəmi,
Sən də gileylisən, mən də gileyli.

Bir eşqi hicrana calamaq olmur,
Dərdi dərd üstünə qalamaq olmur.
Biryolluq qəmi də talamaq olmur,
Sən də gileylisən, mən də gileyli.

Bəxti gətirənlər öydü, öyündü,
Dəmi dəmə qoydu, güldü, söyündü.
Neçə Kərəm yandı, Əsli döyündü,
Sən də gileylisən, mən də gileyli.

Ömrü borc götürdük çəndən, dumandan,
Yaxa qurtarmadıq quru gümandan.
Bu çətin dövrandan, bu sərt zamandan
Sən də gileylisən, mən də gileyli.

## *VAXTIM HA YOXDUR*

Günlər əl eyləyir, ay gəlib keçir,
İllər haya dönür, hay gəlib keçir.
Bahardan doymamış yay gəlib keçir,
Mənim darıxmağa vaxtım ha yoxdur.

Gah çəmən çağırır, gah çiçək məni,
Gah da qarşılayır çən-çisək məni.
Göylərdə gəzdirir bir mələk məni,
Mənim darıxmağa vaxtım ha yoxdur.

Torpaq lalə kimi bitirir məni,
Güllər arasında itirir məni.
Təbiət ilhama gətirir məni,
Mənim darıxmağa vaxtım ha yoxdur.

Ruhuma dad verir yazın yağışı,
Qışın qar görkəmi, yayın baxışı.
Payız da ömrümün təzə naxışı...
Mənim darıxmağa vaxtım ha yoxdur.

Könül həmdəmidir əlimdə qələm,
Ömürdən soraqdır hər təzə kəlməm.
Hələ yol gedirəm çiynimdə şələm,
Mənim darıxmağa vaxtım ha yoxdur.

Anam var - qolumda gücüm var demək,
Vətən var - yenilməz bürcüm var demək.
Üstümdə oğulluq borcum var, demək
Mənim darıxmağa vaxtım ha yoxdur.

## *GİLEY*

Könlümün nazını çəkə bilmədin,
Doğrudan bu sevgi çətinmi sənə?
Məni ürəyinə bükə bilmədin,
Barı tay eləmə hər yol ötənə.

Odur qarşımızda bir ömür yolu,
Odur taleyimiz təklənib gedir.
Bir yük aparıram mən giley dolu,
Yol da səndən küsüb tez sona yetir.

Alın yazısımı, tale payımı,
Tanrının sitəmi beləmi yoxsa?
Bu da bir sevginin səssiz hayımı,
Tək mənim çiynimdə şələmi yoxsa?

Sənsizlik dərdi var, sevgi yükü var,
Özüm də bilmirəm hansını çəkim.
Üstümü kəsdirib acı ruzigar,
Bilmirəm eşqimi haraya əkim.

Bir sevgi biçilib iki ürəyə,
Tək qalan nə çəkir duymağa nə var!
Daha səsləmirəm səni köməyə,
Bir ömrü bir eşqə qıymağa nə var!